# Müstəqilliyimiz dönməz və əbədidir

(Əvvəli 4-cü səhifədə).

Heydər Əliyevin milli dövlətçilik irsinin özünəməxsus cəhətləri, konkret məqsədləri və strateji hədəfləri vardı. O, bu məqsəd və hədəflərə zaman-zaman nail olmuşdur. Onun dövlətçilik irsinin ilkin mərhələsi Azərbaycan cəmiyyətini, dövlət hakimiyyətini dağılmaqdan, parçalanma və mərkəzdənqaçma cəhdlərindən xilas etməkdən ibarət oldu. Həmin dövrdə Azərbaycan cəmiyyəti üçün zəruri və həyati əhəmiyyət kəsb edən başlıca problem ondan ibarət idi ki, ölkədə anarxiya meyillərinin qarşısı alınsın. Bunun üçün kifayət qədər riskli addımların atılması zərurətə çevrilmişdi. Amma Heydər Əliyev ölkəni bu problemdən çıx qısa zaman kəsiyində xilas edə bildi. Ulu öndər siyasi sabitliyi yüksək dəyərləndirirdi:

"Azərbaycanda hər bir şəxs, hər bir partiya, milli birlik, vətəndaş həmrəyliyi istiqamətində hərəkət etməli, fəaliyyət göstərməlidir. Azərbaycanda ictimai-siyasi vəziyyəti gərginləşdirmək yox, yaranmış sabitliyi daha da möhkəmləndirmək lazımdır. Çünki bu Azərbaycanın yaşaması, onun müstəqilliyinin qorunması üçün əsas şərtdir".

Siyasi sabitliyin ardınca köklü islahatlar gəlməli idi və Heydər Əliyev bu yöndə növbəti uğurlu addımlarını atdı. "Əsrin müqaviləsi"nin bağlanması, özəlləşdirmə və torpaq islahatlarının həyata keçirilməsi, mühüm qanunların qəbul edilməsi, əhalinin maddi rifah halının yaxşılaşdırılması, iqtisadiyyatın bərpa edilib inkişaf və yüksəliş yoluna düşməsi, elmimizin, mədəniyyətimizin, təhsilimizin tərəqqisi məhz ölkədə əldə edilən sabitliyin nəticəsi idi.

Ulu öndər Heydər Əliyev heç vaxt xalqa fantastik və populist vədlər vermirdi, əksinə real vəziyyəti və konkret şəraitdə əldə ediləbiləcək nəticələri olduğu kimi təqdim edirdi.

"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik, qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib". Müstəqil Azərbaycanın keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib.

Ulu öndər Azərbaycan dövlətçiliyini, Azərbaycan xalqını fəlakətdən qurtardı, dövlətçiliyi möhkəmlətdi, onu çevriliş, qiyam cəhdlərindən hifz edərək dirçəliş və inkişafa doğru yönəltdi, cəmiyyətdə özünə inam hissini bərpa etdi, sabitlik və firavanlığa şərait yaratdı. Çox böyük əzabəziyyətlərlə əldə etdiyimiz müstəqilliyimizi dönməz və əbədi etdi.

Şübhə yoxdur ki, Heydər Əliyevin başladığı inkişaf yolu ilə gələcək Azərbaycanda onun dövlətçilik ənənələri davam etdiriləcəkdir. Bu yolun Azərbaycan tarixində gerçək yeri məsələsinin hələ çox müzakirələrə səbəb olacağı şəksizdir. Amma önəmli olan bir cəhətdir-bu yolun heç zaman alternativi olmayacaqdır. Xalqımız bu gün həmişəkindən daha rahatdır. Çünki ulu öndərin daxili və xarici siyasət kursunu uğurla davam etdirən Prezident İlham Əliyev kimi liderimiz, dövlət rəhbərimiz var. Ulu öndər hələ vaxtilə onun haqqında demişdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqı ümummilli liderin tövsiyyəsinə və Heydər Əliyev dühasına sadiq olduğunu nümayiş etdirdi.

Cəmiyyət Heydər Əliyevin daxili və xarici siyasət kursuna alternativ görmədiyi kimi bu strategiyanı uğurla davam etdirəcək siyasi xadimi də haqlı olaraq ümummilli liderin inamı əsasında cənab İlham Əliyevin fəaliyyəti üzərində kökləndi. Cəmiyyətdə qəti olaraq belə bir rəy formalaşdı ki, cənab İlham Əliyev ulu öndərin siyasi kursunun müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edə biləcək alternativsiz şəxsdir. Prezident mövcud reallıqları operativ və obyektiv olaraq qiymətləndirir, sosial sifarişə uyğun çevik qərarlar qəbul edir. Xüsusilə ölkənin sosial-iqtisadi problemlərinə onun münasibəti daha həssasdır. Prezident eyni zamanda istedadlı strateq olaraq Azərbaycanın geosiyasi mövqeyini düzgün qiymətləndirir. Möhtərəm Prezident bütün uğurlu və müsbət keyfiyyətləri ilə Azərbaycan siyasətinə həm də yeni nəfəs, siyasi ruh və müasirlik gətirdi. Cənab İlham Əliyev eyni zamanda gördüyü işlərlə bütövlükdə Azərbaycanı regionun ən qüdrətli dövlətinə çevirdi. Ulu öndərin ərməğan qoyub getdiyi dövlət müstəqilliyimizi daha da möhkəmləndirdi., onun əbədiliyi və dönməzliyini dünyaya bir daha bəyan etdi.

Bu gün əsas vəzifəmiz müstəqilliyimizin mahiyyətini, əhəmiyyətini dərindən dərk etməkdir. Bütün çətinliklərə, məhrumiyyətlərə baxmayaraq, müstəqilliyimiz ən böyük sərvətimiz olduğunu başa düşməliyik. Xalqa, xüsusən də gənc nəslə müstəqilliyimizin böyük nemət və əvəzsiz bir sərvət olduğunu dönə-dönə izah etməli, onu vətəndaşlarımızın zehninə, düşüncəsinə və qəlbinə birdəfəlik həkk etməliyik. Qərinələr ötəcək, əsrlər keçəcək, nəsillər dəyişəcək, dövlət müstəqilliyimizlə ümummilli liderimiz Heydər Əliyevin adı qoşa çəkiləcəkdir.

**Aslan CƏLİLOV.**

# Heydər Əliyevin qətiyyəti və siyasi iradəsi dövlət müstəqilliyimizi əbədiləşdirdi

*Azərbaycan dövlətçiliyi 1994-cü ilin oktyabr sınağından da uğurla çıxdı*

1993- cü ilin ikinci yarısından başlayaraq ölkədə həyat tədricən öz axarına düşdü. Xalqın təkidi ilə respublikaya rəhbərlik edən ulu öndər Heydər Əliyevin qətiyyəti və müdrikliyi sayəsində müstəqilliyimiz daha da möhkəmləndirildi. Əlbəttə, bütün bunlar xalqımız üçün asan başa gəlmədi. Ulu öndər ilk növbədə Azərbaycanı xaos və hərc-mərcliyin pəncəsindən, parçalanmaq təhlükəsindən, vətəndaş müharibəsindən xilas etdi.. Qısa vaxtda ölkədə yaranan siyasi sabitlik və əldə olunan atəşkəs nəticəsində sosial-iqtisadi inkişaf konsepsiyası hazırlandı və bu istiqamətdə qətiyyətli addımlar atıldı. Qonşu ölkələrlə pozulmuş münasibətlər bərpa olundu, dünyanın inkişaf etmiş ölkələri ilə xalqımızın və dövlətimizin milli maraqlarına uyğun əlaqələr quruldu, eyni zamanda, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirildi.

Gənc müstəqil Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyası, xüsusilə, ölkənin hərtərəfli inkişafını təmin edəcək "Əsrin müqaviləsi" adlı nəhəng neft sazişinin imzalanması hakimiyyət hərislərinin bütün ümidlərini puç edirdi. Xarici himayədarlarının köməyi ilə hakimiyyəti ələ keçirmək istəyən bəzi qüvvələr ciddi narahat olmağa başladılar. Ölkənin inkişafını gözü götürməyən bədxahlarımız tərəfindən müxtəlif məkrli planlar ortaya atılırdı. Gah dövlət müstəqilliyimizin qarantı olan, ölkəni məhv olmaqdan xilas edən, müstəqilliyimizi getdikcə möhkəmləndirən, respublikada ciddi nizam- intizam yaradan ulu öndər Heydər Əliyevin fiziki cəhətdən yox edilməsinə yönələn cəhdlər göstərilir, gah da ümummilli liderin ətrafındakı kadrlara qarşı sui-qəsdlər təşkil edilirdi.

Hakimiyyət hərisləri bütün vasitələrlə ölkədə qarşıdurma yaradaraq, ulu öndərin həyata keçirdiyi tədbirlərin qarşısını almağa cəhd edirdilər.

1994-cü il oktyabrın 4-də Azərbaycanda Surət Hüseynovun rəhbərliyi ilə növbəti silahlı qarşıdurma başladı. Heydər Əliyev 1993-cü il 4 iyun hadisələrindən fərqli olaraq, bircə güllə belə atılmadan oktyabr hadisələrinin qarşısını yalnız siyasi gedişlərilə aldı.

Ulu öndər həmin vaxt xalqa müraciət etdi. Qısa müddətdə yüz minlərlə insanın Prezident iqamətgahı qarşısına toplanması və hakimiyyətə dəstək nümayiş etdirməsi ulu öndərin xalq arasında misilsiz hörmət və nüfuzunun göstəricisi idi.

Xalq həmin ağrılı-acılı, məşəqqətli günlərdə böyük liderini bir an da olsa tək qoymadı və dövlətçiliyimizin düşmənlərinə, milli xəyanətkarlara, vəzifə hərislərinə öz yerlərini göstərdi.

Oktyabrın 5-də "Azadlıq" meydanında keçirilən ümumrespublika həmrəylik mitinqində isə ulu öndər demişdir: "Beləliklə, biz dünyanın böyük ölkələrinin, dünya ictimaiyyətinin Azərbaycanda gedən hadisələrə marağını görürük. Eyni zamanda, dövlət başçılarının Azərbaycan dövlətini dəstəklədiklərini də görürük. Bütün bunlara görə mən bu gün bizimlə həmrəy olan dövlət başçılarına, dövlət orqanlarına öz təşəkkürümü , minnətdarlığımı bildirirəm".

Ümummilli lider Heydər Əliyevin müdrikliyi və siyasi uzaqgörənliyi sayəsində dövlət müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın beynəlxalq aləmdə əlaqələrinin möhkəmləndirilməsinə və və inkişafına mane olmaq istəyən düşmənlərimiz 1994-cü ilin oktyabrında növbəti dəfə ifşa edildilər, məğlub oldular və xalqın böyük təpkisi ilə üzləşdilər. Təbii ki, istənilən dövlətin milli xəyanətkarı, satqını, xarici və daxili düşməni ola bilər. Amma həmin qüvvələrə ölkə daxilindəki bəzi çirkin məqsədli ünsürlərin də qoşulması qətiyyən yolverilməzdir. Milli dövlətçiliyimizi məhv etməyə çalışanların ölkə daxilində bəzi xəyanətkarlar tərəfindən dəstəklənməsinə heç cür bəraət qazandırmaq olmaz. Məhz ona görə də Azərbaycan xalqı həmin qaragüruhçu insanların siyasət meydanında növbəti dəfə görünməsini istəmir və buna yol verməyəcək.

Bu gün 1994-cü il oktyabr hadisələrindən 21 il ötür. Ancaq bu hadisələr hələ də unudulmayıb. Xalq çox yaxşı dərk edir ki, ölkəmizin bugünkü firavanlığı, Azərbaycanın dünya birliyində nüfuzunun getdikcə artması və mövqelərinin möhkəmləndirilməsi məhz həmin o çətin və gərgin illərdəki qətiyyətin və müdrikliyin təntənəsidir.

**Qüdrət SƏMƏDOV.**